## Sumqayıt Dövlət Universitetinin nəzdində "İnklüziv Təhsil Mərkəzi"nin

## Əsasnaməsi

Sumqayıt Dövlət Universitetində (bundan sonra – "Universitet") 2016-cı il tarixində yaradılmış Fiziki imkanları məhdud olan tələbələr üçün mərkəzin adı onun fəaliyyət dairəsinin genişləndirilməsi və müasir standartlara cavab verə bilməsi məqsədilə İnklüziv Təhsil Mərkəzi (bundan sonra – "Mərkəz") kimi olaraq dəyişdirilir.

Universitet fiziki imkanları məhdud olan tələbələr üçün inkişaf imkanları və şəraiti təmin etməyi və həmçinin onların təhsilə inteqrasiyasını fəaliyyətinin vacib istiqaməti hesab edir. Universitetin məqsədi Universitet kollektivinin bir üzvü olan fiziki imkanları məhdud olan tələbələr üçün Universitetin xidmətlərindən və təhsil proqramlarından istifadə etmək imkanları yaratmaqdır.

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Universitetin struktur bölməsi olan və Universitet nəzdində inkişaf fəaliyyətlərinin həyata keçirilməsi üçün yaradılan Mərkəzin fəaliyyətini tənzimləyir. Mərkəz Avropa İttifaqının "Fiziki imkanları məhdud olan şəxslərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə inteqrasiyası" (ESFİDİP) layihəsi çərçivəsində yaradılır.

1.2. Mərkəz fiziki imkanları məhdud olan tələbələr üçün inkişaf imkanları və şəraiti təmin edən, onların təhsilə inteqrasiyasını dəstəkləyən bir strukturdur. Mərkəz fiziki imkanları məhdud olan tələbələrin təhsil və təlim resurslarından istifadə etmələrinə, bacarıq və qabiliyyətlərinin inkişafına, həmçinin potensialın reallaşdırılmasına yardım göstərir.

1.3. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, beynəlxalq hüquqi aktları, "Təhsil haqqında" və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunlarını və digər normativ hüquqi aktları, eləcə də bu Əsasnaməni rəhbər tutur.

1.4. Mərkəz öz fəaliyyətində SDU-nun rektoruna tabedir və onun qarşısında cavabdehlik daşıyır.

1.5. Mərkəzin strukturu SDU-nun rektoru tərəfindən təsdiq edilir və koordinatoru rektor tərəfindən təyin olunur.

1.6. Mərkəzin koordinatoru Mərkəzin fəaliyyətini həyata keçirmək məqsədilə öz tərkibinə məsuliyyətli şəxsləri cəlb edir.

1.7. Mərkəzin maddi ehtiyatları və avadanlıqları layihə çərçivəsində yaradılır və layihə başa çatdıqdan sonra Universitetin mülkiyyəti hesab edilir. Mərkəzin fəaliyyəti müxtəlif könüllü ianələr, proqramlar və layihələrlə də dəstəklənir.

## 2. Mərkəzin məqsəd və vəzifələri

2.1. Mərkəzin əsas məqsədi fiziki imkanları məhdud olan tələbələr üçün təhsil imkanlarını və bütövlükdə onların təhsilə inteqrasiyasını təbliğ etməkdir.

2.2. Mərkəzin aşağıdakı vəzifələri vardır:

- fiziki imkanları məhdud olan şəxslərin təhsilə cəlb olunmasına şərait yaratmaq;
- fiziki imkanları məhdud olan tələbələri təhsil imkanları və resursları ilə təmin etmək;
- fiziki imkanları məhdud olan tələbələr üçün könüllü əsasla təlimlər və kurslar təşkil etmək;
- eyni profilli mərkəzlərlə təcrübə mübadiləsi aparmaq;
- cəmiyyətin müxtəlif təbəqələri arasında “fiziki imkanların məhdudluğunun dərki” istiqamətində maarifləndirmə işləri aparmaq.

Əsasnaməyə əlavə və dəyişikliklər mövcud qanunvericiliyə əsasən aparılır.